**Fidan İlqar qızı Abdullayeva** [117]

# AQİL ABBASIN "DOLU" ROMANINDA QARABAĞ HƏQİQƏTLƏRİNİN TƏSVİRİ

**Giriş**. Məqalədə Qarabağ münaqişəsi fonunda gedən azadlıq mübarizəsinin əks olunduğu "Dolu"romanından bəhs olunur. Aqil Abbasın qələmindən "Dolu" əsərində təsvir olunan bütün hadisələr utopiklikdən uzaq olaraq, tam reallıqları əks etdirir. Yazıçı bu amansız vəziyyətlə meydanda tək başına buraxılan xalqın daxili dünyasını, psixoloji vəziyyətini obrazların dilində poetikləşdirərək ustalıqla təsvir edib.

**Əsas hissə.** Bir millətin tarixini, mədəniyyətini, adət və ənənələrini, torpaqlarını zor gücünə mənimsəyən, minlərlə insanın gələcəyini uçuruma aparmağa səbəb olacaq təxribatlar aparan, həmin millətin ah-fəğanı üzərinə "xoşbəxt" qondarma dövlətini yaradan bir toplum düşünün. Hansı ki, əzəldən bəri dünyaya bəxş etdiyimiz sərvətlərdə gözü olan bir toplum..

Hələ 1980-ci illərin sonlarından etibarən Erməni tərəfinin torpaqlarımıza olan ərazi iddiası məsələsi qaldırılmışdı.90-cı illərdən isə bu əsassız ərazi iddiaları hərbi təcavüzlə nəticələnmişdi. 1992-ci il 26 fevral Xocalı soyqırımı ilə başlayan qan donduran günlər 1993-cü ilin sonlarına qədər davam etdi. Xocalı, Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Zəngilan və Qarabağın digər zəngin torpaqlarının adı 30 illik işğal tarixinə düşdü.

Müasir dövrə nəzər salsaq, incəsənətin müxtəlif sahələrində 30 illik müharibənin dəhşətlərini əks etdirən sənət nümunələrinin olduğunu görə bilərik. Ədəbiyyat səhifələri, musiqi notları, rəssamlıq boyaları bu hadisələri əks etdirmək iqtidarındadır. Qarabağda baş verən hadisələrdən üzü bəri istər nəsrdə, istər poeziyada, dramaturgiyada, publisistikada maraqlı əsərlər yazılıb.

Bu mövzunun ən uğurlu əsərlərindən biri "Dolu"dur. Əsərin müəllifi olan Aqil Abbas Azərbaycan Respublikasının dövlət xadimi, görkəmli yazıçısıdır. Bədii yaradıcılığa 1970-ci ildən başlayan Aqil Abbasın yaradıcılığına diqqət yetirsək, məlum olur ki, müəllifin Qarabağ fonunda yazılan əsərləri müharibə həqiqətlərini tam şəffaflığı ilə oxucuya çatdırması baxımından çox qiymətlidir. Professor Nizami Cəfərovun Aqil Abbas haqqında düşüncələrinə əsasən, müəllif Qarabağ bölgəsinin ictimai-siyasi, sosial, coğrafi mühitinə aşina olduğundan insanları yaxşı tanıyır, onların nəyə qadir olduğundan xəbərdardır [2, s. 23].

Roman sosial və psixoloji mövzulara toxunaraq cəmiyyətin və fərdin qarşılaşdığı çətinlikləri, xüsusilə də müasir dövrün dilemmasından doğan gərginlikləri əks etdirir. "Dolu"da müəllif, insanın daxili dünyasına, onun qarşısında duran həyat problemlərinə və cəmiyyətlə əlaqələrinə dərindən nəzər salır.

2008-ci ildə nəşr etdirdiyi "Dolu" əsərinin adı rəmzi məna daşıyır. Dolu, adətən, ilin isti dövründə xırda buz halında yerə düşən yağıntıdır. Müəllif dolu yağan zamanlar uşaqların ürəyinin sevinc hissi ilə dolub daşdığını, bu təbiət hadisəsindən zövq aldıqlarını, böyüklərin isə tez daldalanmağa yer axtardıqlarını təsvir edir. Lakin məlum olur ki, əsərdə həmin "dolu"dan söhbət getmir. Düşmənin gecəyarısı qəfil hücumu insanı doludan qaçdığı kimi, qaçıb gizlənməyə vadar edir.

Romanda Qarabağ münaqişəsinin şəxsi həyatlara və cəmiyyətə necə təsir etdiyi göstərilir. Müharibənin baş verdiyi dövrdə insanların həyatında yaranan çətinliklər, fiziki və emosional zədələr əsərdə öz əksini tapır. Bu zədələr yalnız döyüşlərə qatılan şəxslərin deyil, müharibənin nəticəsindən əziyyət çəkən insanların da həyatına təsir edir:

"Eyni göyü, eyni torpağı, eyni qanı, eyni şəhəri paylaşırdılar. Eyni göyü, eyni torpağı, eyni qanı bərabər paylaşsalar da, amma bu eyni şəhəri eyni paylaşmamışdılar" - müəllif fəlakətlərin başlanğıcını belə izah etmişdir [1, s. 3]. Düşmən sanki ulularından onlara miras qalmış kimi bu torpaqlara göz dikmişdi.

Bu şəhər "Dünyanın ən varlı şəhəri" idi-Ağdam. Əsərdəki hadisələr Ağdamda cərəyan edir. Aqil Abbasın dediyinə görə, ona görə Azərbaycanın tək varlı şəhəri Ağdam deyildi, sadəcə, hadisələri Ağdam fonunda təsvir etmişdi. Bəzilərinə görə, "Dünyanın ən varlı şəhəri" Tərtər, Şuşa,Laçın da ola bilərdi [2, s. 22]. Əsərin qəhrəmanları nitqləri, daxili aləmlərinin təsviri baxımından zəngin obrazlardır. Pələng, Drakon, Rəis, Komandir, Eldar Bağırov və bir neçə digər obrazlar əsərin müsbət qəhrəmanlarıdır, onlar xalqın içindən çıxan və xalq arasında da hörmət qazanmış şəxslərdir. Onların tək amalı Vətəni düşmən əlinə buraxmamaqdır.Bu soyğunun qabağını kəsmək üçün onlar canlarından keçməyə də hazırdılar.

Ancaq düşmən o qədər əzazildir ki, heç əzrayıl belə can almaq mövzusunda bu qədər əzazil deyil: "Əzrayıl yuxarıdan dəhşətlə tamaşa edirdi. İnsanların onu da dəlik-deşik edəcəyinin qorxusundan aşağı yenməyə ürək eləmirdi, bir də ki, heç ona ehtiyac yox idi, insanlar özləri bir-birinin Əzrayılına çevrilmişdilər". Bu cümlə düşmənin amansızlığını ifadə edə biləcək dərin mənanı kəsb edirdi. Aqil Abbas əsərində bu faciəni obrazların dilindən ifadə edir, doğulmamış körpədən tutmuş əliyalın kənd sakinlərinə qədər hər kəsin başına açdıqları oyunları bütün reallığı ilə oxuculara çatdırmışdı. Düşmən uşaqları analarının gözləri qarşısında öldürür, hamilə qadınların qarnını yarıb içərisindən uşağı çıxardır, beləcə iki insanın da həyatına son qoyur, yaşlıların qol-qıçını şikəst eləyib əzab verməkdən zövq alır,kənddən başını götürüb-qaçan sakinləri gülləbarana tutur, tankla, BMP ilə əzib keçirdi.
Hətta əsərin səhnələrinin birində Komandir bağırsaqları çölə çıxmış, ağacdan asılı qalan bir kişinin cəsədi ilə qarşılaşanda bu zülmün həddi-hüdudu olmadığı gerçəyini anlayır. Bu şiddət, nifrət, zülmkarlığı yalnız müharibənin gedişində deyil, müharibə bitəndən sonra da əllərinə keçirdikləri əsirlərə qarşı da davam etdiriblər. Bir zamanlar Salman Mümtazı, Əhməd Cavadı, Mikayıl Müşfiqi öldürən bu əllər yenə öz əməlindən geri qalmamışdı. Yazıçı Ayna Sultanova və onun yoldaşı Həmid Sultanovun əsirlikdə başlarına gələn hadisələri elə ustalıqla təsvir

117 Bakı Dövlət Universitetinin magistrantı, fidan19abdullayeva@gmail.com

etmişdi ki, oxucunun qanı donurdu. XI Qırmızı Ordunun Azərbaycana daxil olması ilə bir neçə yüksək vəzifələrdə çalışmış Sultanovanın bununla sanki gözünü boyamağa çalışmışdılar. Çünki həyatının sonuna qədər Sovet hakimiyyətinin davamlılığı üçün siyasətə qoşulan Ayna Sultanova və onun yoldaşı Həmid Sultanov da dövlətə xəyanət damğasına məhkum olunmuş,xalq düşməni adı ilə repressiyaya məruz qalmışdılar [5]. Aqil Abbasın əsərdə təsvir etdiyinə görə, başında tək bir tel saxlanmayan, üz-gözü məhv edilən, dəfələrlə ərinin qarşısında zorlanan bu qadın və Allahdan ölümü diləyən, bunlara tab gətirməyən Həmid Sultanov bu ağır cinayətin günahsız qurbanları idi. Yazıçı bu hadisələri belə təsvir edir: "Əzrayıl yanında dayansa da nə onun yalvarışlarını eşidirdi, nə də qarğışlarını - əlində çürümüş alma, eləcə quruyub qalmışdı. Əgər Əzrayıl o idisə, bəs bunlar kim idi?!" [1, s. 58]. Bəli, erməni əzrayıldan da betər idi.

Aqil Abbas qeyd edir ki, bu ölkə düşmənə satılıb, həm də sapı özümüzdən olan baltalar bunu edib. Bir tərəfdən, At Belində Olan Adam kimi şəxslər ölkəni soyub talan edib, bu şəhərin vətəndaşlarını, onların istəklərini düşünmədən öz mənfəətlərini güdüblər.Vəzifələrini itirməmək üçün böhtandan, şərdən əl çəkməyiblər. Digər yandan isə bu ölkə əzəldən çoxlarının maraq dairəsində idi. Bu ölkənin gələcəyi haqqında qərarlar Böyük Dövlətlərin Böyük Saraylarında planlanmışdı. Yuxarılar da istəklərini həyata keçirmək üçün Aşağıları əllərində oyuncağa çevirmişdilər. Aqil Abbas əsərdə bir neçə kəlmə ilə bunu belə izah edib: "Bir zamanlar Stalini bu divarlar arasından çıxarıb xilas edən Məhəmməd Əmin, sonradan Stalinin əli ilə ölümə tərk edilmişdi".

Əsərin iki baş qəhrəmanına nəzər yetirək: Drakon və Pələng. Yazıçı bu adları seçərkən obrazların göstərdikləri şücaətləri, onların qorxmazlığını nəzərə almış, xalq arasında tanınan, seçilib-sevilən obrazlar yaratmışdı. Əgər belə qəhrəmanlar ixtiyar sahibi olsa idilər, onların ordusu, cəbhəxanası olsa idi, əlbəttə, ermənilər onlara heç vaxt güc gələ bilməzdilər. Bu həmin Drakondur ki,"Dünyanın ən varlı şəhəri"ni erməni və rus millətçilərindən müdafiə etmək üçün mübarizə aparır, öz əqidə yoldaşları ilə şəhəri müdafiəyə qalxır, özü də vaxtı ikən bu yolda qardaşını Şəhid vermişdi. Pələng yaşca Drakondan kiçik olsa da, cəsarətliliyinə görə ondan heç də dala qalmırdı. O, Vətəninin düşdüyü ağır vəziyyəti qəbul edə bilmirdi,getdikcə Livana dönən Azərbaycanla bağlı qorxuları artırdı. Pələngə görə, artıq ölkəsi Livandan da betər idi. Bir yanda müharibə gedirdi, millətin yarısı qırılırdı, digər tərəfdən də camaat öz kefində, damağında idi, restoranlarda və barlarda gününü gün edirdi. "Bəs hər şey Vətən üçün! , Hər şey cəbhə üçün! deyirdilər"-Pələngin dilindən verilən bu sözlərdə yazıçının istehzası aydın duyulur.

Pələngə hələ az yaşlarında Rəşid Behbudov tərəfindən xalqımızın kişilik və qürur rəmzi olan papaq və xəncərin hədiyyə edilməsi epizoduna xüsusi diqqət yetirmək lazımdı. Azərbaycan xalqının mədəniyyətində əvəzsiz xidmətləri olan Rəşid Behbudovun vasitəsilə müəllif hadisələrin tarixilik amilinə toxunur. Əsərdə dahi sənətkar tərəfindən bağışlanmış hədiyyənin əsərin sonunda yoxa çıxmasıxüsusi məna daşıyır. Bunun nə demək olduğunu düşünsək, deyə bilərik ki, torpağı işğal altında olan, qadınları, qocaları, uşaqları əsirlikdə olan millətin kişisi başına papaq qoya, belinə xəncər bağlaya bilməz [2, s. 161].

Pələng və Drakon aralarındakı anlaşılmazlığa baxmayaraq, düşmənə qarşı bu savaşda bir-birilərini tək qoymurlar. Drakon ermənilərin BMP-ni partladır, neçə ermənini cəhənnəmə vasil edir. Ancaq, silah yoldaşı Pələngi də burada itirir. Snayperin atəşi Pələngin sinəsini dəlib keçir, çox qan itirən Pələng Drakonun dizləri üstündə canını tapşırır. Bu səhnə oxucunu ağır hüznə boğur, içindəki düşmən nifrətini alovlandırır:"Drakon Pələngi uzatdı otların üstünə. Bu dəqiqə Dünyanın Ən Gözəl Ölüsü onun qucağındaydı. O da Dünyanın Bu Ən Gözəl Ölüsünü bağrına basıb ağlayırdı. " [1, s. 44].

Silah yoldaşını itirən Drakon da az sonra düşmən gülləsinin əsiri olur, "Hər şey Vətən üçün" nidaları ölənə qədər onların dilindən düşmür. Vətən yolunda özünü qurban verən qəhrəmanların fonunda yazıçının yaratdığı Pələng və Drakon obrazları onu sübut edir ki, bu torpaq yolunda mərd, gənc oğullarımız Şəhidlik zirvəsinə yüksəliblər. Bu iki obraz vətənpərliklə yanaşı, həm də dostluğun, yoldaşlığın simvolu idi. Drakon ağır kəşfiyyata gedəndə Pələngin də onu tək qoymamasıonlar arasındakı möhkəm və pozulmaz dostluğu göstərirdi. Ancaq Aqil Abbasın da dediyi kimi, bu cavanlar əllərində silah tutacaq, gülləbarana qurban gedəcək yaşda deyildilər, onların da arzuları, məqsədləri var idi. Ağzından süd iyi gələn bu uşaqları zorla batalyona gətirib əllərinə silah verməklə Vətəni qorumaq mümkün deyildi. Bu Vətənin hərbi ehtiyacları ödənməli idi, onun da ordusu, təchizatı, avadanlığı, silahının patronu olmalı idi. Buna isə Yuxarılar imkan verməmişdilər. Müdafiə Nazirliyi pulu olanların övladlarını buraxırdı, pulu-parası olmayan cavan uşaqları isə Bakıdan gətirib onun öhdəliyinə buraxırdılar. Heç bir təlim almayan, silah tutmağı bilməyən, çoxu da məktəb uşağı olan bu oğlanlar qorxub döyüş meydanından qaçırdılar. Öz gücünə, əlində qalan son silahları ilə kənd camaatının girdiyi bu döyüşün qeyri-bərabər aparıldığını yazıçı hər vəchlə əsərdə təsvir etməyə çalışıb. Aqil Abbas həm müharibə şəraiti, həm də müharibədən sonrakı vəziyyətin canlı şahidi olduğu üçün oxucuya bütün bu olanların gerçəkliyini çatdırmağa nail olub.

Pələng və Drakon kimi iki cəsuru torpağa verən Komandirin daxili aləmi və keçirdiyi sarsıntılar əsərin süjet xətti boyunca davam etdirilib. Komandir obrazı romanın mənəvi və sosial məsələlərini əks etdirən güclü bir fiqurdur.

Hələ əsərin I hissəsində müsahibə almağa gələn jurnalistlə Komandirin söhbətindən yazıçının qəzəbi aydın hiss olunur. Komandir: "Bilirsən dostum, müharibədə üç cürə adam var. Döyüşənlər, tank belində şəkil çəkdirənlər, bir də müsahibə verənlər. Bu boyda rayonda iki tank var, birini camaat pul yığıb alıb, Qarağacıda qəbristanlığında ermənilərin qabağın kəsib. O birini də Mütəllibov göndərib özününkülərə, guya biz nemesik. Ağ Evin qabağındadı, ordakıları qoruyur. Şəkil çəkdirənlər üçündü, istəyirsən get birini də sən çəkdir. Bizim batalyondakılar döyüşənlərdi, şəkil yerini də göstərdim. Müsahibə verənlər də Ağ Evdədilər, bilyard oynayırlar" [1, s. 12]. Vətəni düşmənin əlinə buraxmağa niyyəti olmayan Komandir son anda belə silahı əldən verməyib, düşməndən qaçanları ağır ittiham edib,

onları düşmənlə vuruşmağa məcbur edib. Lakin Komandir də yaxşı bilirdi ki, bu gedişlə-50-60 cavan uşaq, bir neçə bomba, patronla düşmənin qabağını kəsmək mümkünsüzdür. O,nə batalyondakıların, nə də özünün ümidinin kəsilməyinə imkan verirdi."Arxamızda ana-bacılarımız var"-deyib kimisə ruhdan düşməyə qoymurdu. Pələnglə Drakonu ondan alan düşmən sanki onun qol-qanadını da sındırıb yanına qoymuşdu. Pələngin anası cənazəyə gələndə batalyondakı hər kəs bu qadına böyük hörmət bəsləmişdi. Bu qadın övladını bu yolda qurban verən hər Şəhid anasının ümumiləşmiş obrazıdır.

Əsərin digər qadın obrazı olan Musanın anasının timsalında isə qaçqınlıq taleyi yaşayan Azərbaycan qadınlarının əsl faciəsi qabardılıb. Musanın anası- oğlu ölmüş bir ana-neçə vaxt idi oğlunun ölümünü bilməməyin xoşbəxtliyini yaşayırdı.Bu obraz övladı itkin düşən ananın küncdə-bucaqda kiçik də olsa ümidi qaldığını göstərirdi,müharibədə övladı itkin düşən digər analar kimi..

Pələng, Drakon kimi oğullarını itirən Vətəni bir zamanlar xan qızı Natəvanın Şuşada tikdirdiyi həbsxana məhbusları qorumalı olmuşdu. Bəlkə də məhbusların bu cəsurluğu daha bir Xocalı faciəsinin yaşanmasına maneə olmuşdu, Şuşa şəhəri də Xocalı qədər dəhşətlərə şahid olmamışdı. Müəllif əsərin birinci hissəsini bu cür yekunlaşdırır:" Batalyonun həyətində qaldırılan isə Türkiyənin bayrağı deyildi,Drakonun köynəyiydi,Pələngin qanıyla boyanmış köynəyi" [1, s. 46].

Əsərin II hissəsi isə müharibədən sonrakı dövrün tarixi-siyasi mənzərəsini əks etdirir. Komandir obrazı vasitəsiylə sənətkar müharibədən sonrakı Azərbaycan gerçəkliklərini göstərməyə çalışıb. Vətənə sədaqəti ilə tanınan bu obrazın jurnalistlərlə düşən mübahisəsi, polis idarəsində rəislə söhbəti və s.dən aydın olur ki, müharibədən sonra da Qarabağ müharibəsi ilə bağlı dünya siyasəti ikili münasibət göstərib. Ermənilərin ipini əllərində tutub onları yönləndirən Yuxarılar bu faciəni adi hadisədən sayaraq,yaxın qohumları olan ermənilərin hələ haqlarını da müdafiə ediblər.

Əsərin sonlarına yaxın Komandiri təəccübləndirən şey o idi ki, Pələngin də əvvəllər təəccüb etdiyi kimi, insanlar sanki bu faciə yaşanmamış kimi həyatlarına davam edirdilər. Bu cəhət əsəri xüsusiləşdirən tərəflərindən biri idi.

Əsərin sonluğunda yazıçı yenidən dolu hadisəsini canlandırıb. Əvvəlkindən fərqli olaraq,bu, təbiət hadisəsi olan dolu idi,insanların sevincinə səbəb olan yağıntı idi. Bu dəfəki dolu can almamışdı, Pələngi,Drakonu,Komandiri mübarizəyə səsləyən SOS siqnalı artıq eşidilmirdi.

**Nəticə**. Aqil Abbasın "Dolu" romanı, müasir Azərbaycan ədəbiyyatında sosial, psixoloji və fəlsəfi aspektləri əhatə edən önəmli bir əsərdir. Romanda XX əsrin sonunda millətimizin başına gətirilən faciələrin səbəbləri və nəticələri cəsarətlə bədiiləşdirilib. Aqil Abbasın bu istiqamətdə qələmini sınaması, xalqın yaşadığı müsibətlərin ictimaiyyətə çatdırması məsələsi əsərin aktuallığını hər dövrdə qoruyur.

**İstifadə edilmiş ədəbiyyat**


1. Abbas A. "Dolu", 2008, Bakı, 74s.
2. Qarabağ Azadlıq Təşkilatı "Qarabağ dünən, bu gün və sabah" 9-cu elmi-əməli konfransının materialları, 2010, Bakı, 211s.
3. Osmanoğlu M.Aqil Abbasın "Dolu" romanının subyektiv interpretasiyası //"Ədəbiyyat " qəzeti, 2021, s. 22-23
4. Yusifli V. Sözün Aqil Abbas ahəngi // "525-ci qəzet", 2013, s. 20
5. https://tr.wikipedia.org/wiki/Ayna_Sultanova



**Keywords**: Karabakh conflict, Agil Abbas, the novel of "Dolu", loyalth, martyr
**Ключевые слова:** Карабахский конфликт, Агиль Аббас, роман «Долу», верность, мученик



## Summary

The Karabakh conflict began in the 1980s, and since 1992, Armenians have continued the policy of seizing our lands included in the territory of Karabakh. Regarding this conflict, measures were taken not only in the political arena, but also in the cultural spheres of the state, and different works were written. One of them is the novel "Dolu" by Agil Abbas. In the novel, the difficult situation of the Azerbaijani people is masterfully written.



## Резюме

Карабахский конфликт начался в 1980-х годах, а с 1992 года армяне продолжили политику захвата наших земель, входящих в территорию Карабаха. В связи с этим конфликтом были приняты меры не только в политической сфере, но и в культурной сфере государства, написаны различные произведения. Одним из них является роман «Долу» Агиля Аббаса. В романе мастерски описано тяжелое положение азербайджанского народа.


**RƏYÇİ: dos. E.Vəliyeva**